HEYDƏR ƏLİYEV FONDU

IDEA İctimai Birliyi

# TƏBİƏTİN TƏCİLİ YARDIMI

1113

# Zəng et!



(+994 12) 497 63 16 www.ideacampaign.org

/ ideacampaign.org / idea_campaign

# AĞACIN ƏKİLMƏSİ QAYDALARI

1



Diametri 60-80 sm, dərinliyi 50-60 sm olan çala qazın.

2



Torpağın münbit hissəsi ilə gübrəni qarışdırıb çalanın dibinə tökün.

3



Tingin kök şaxələrini açaraq çalada yaranmış təpəciyin üstünə qoyun.

**Qeyd:** Çalanın ölçüləri əkiləcək ağacın böyüklüyündən asılı olaraq dəyişə bilər.

**Qulluğu:** Əkilmiş bitkilər ilk illərdə davamlı və bol suvarılmalıdır. Yaz və yay aylarında dağlıq və dağətəyi rayonlarda həftədə bir dəfə, Aran rayonlarında iki dəfə, Abşeronda isə həftədə iki-üç dəfə suvarılmalıdır. Tingin ətrafındakı yabanı otlar təmizlənməli, yaz aylarında azot gübrəsi verilməlidir. Gübrə torpaqla qarışdırılmalı və tinglər təkrar suvarılmalıdır.

# AĞACIN ƏKİLMƏSİ QAYDALARI

4



Torpaq və gübrə qatışığının qalan hissəsi ilə çalanı doldurun. Tingin ətrafındakı torpağı astaca tapdalayın.

5



Ting ətrafında diametri 60-80 sm olan çuxur yaradın. Daha sonra tingi 15-20 litr həcmində su ilə suvarın.

6



Küləkli hava şəraiti olan zonalarda əkilmiş tingi dayağa bağlayın.

IDEA İctimai Birliyi tərəfindən “Ağacların kəsilməsinə yox!” proqramı çərçivəsində “Təbiətə təcili yardım” qaynar xətti (bütün mobil operatorlar və şəhər nömrələrindən - 1113) və xüsusi mobil qrup yaradılmışdır. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda qaynar xətt vasitəsi ilə şikayətləri IDEA İctimai Birliyinə çatdıra bilər. Mobil qrup daxil olan şikayətləri yerində araşdırır, problemlə bağlı əlavə sübutlar, foto və video materiallar toplayaraq, müvafiq dövlət qurumları ilə birlikdə aidiyyəti tədbirlər görür.

FSC
www.fsc.org
MIX
Paper from responsible sources
FSC C111584



## ÇİNAR
(Platanus orientalis)

Çinar hündürlüyü 25-35 m-ə çatan enliyarpaq ağacdır. Çinar əsasən şəhər yaşıllaşdırılmasında geniş istifadə olunur. Toxum və çiliklə çoxaldılır. Günəş işığına, istiliyə və suya tələbkardır, -20°C-dək şaxtaya dözür. Çinar tingləri yaz və payız aylarında 4x4 m (cərgəarası məsafəsi və ağacların arasındakı məsafə) və ya 5x5 m məsafədə əkilə bilər.



## ELDAR ŞAMI
(Pinus eldarica)

Eldar şamı hündürlüyü 15-20 m-ə çatan həmişəyaşıl ağacdır. Aran və dağətəyi zonalarda əkilə bilər. Toxumla çoxaldılır. Quraqlığa davamlıdır, -25°C-dək şaxtaya dözür. Tinglərin yaz və payız aylarında 3x4 m məsafədə əkilməsi tövsiyə olunur.



## SƏRV
(Cupressus sempervirens)

Həmişəyaşıl sərv 20-25 m-ə çatan iynəyarpaqlı ağacdır. Aran və dağətəyi zonalarda əkilə bilər. Quraqlığa davamlı, su və torpağa az tələbkardır, -20°C-dək şaxtaya dözür. Toxumla çoxaldılır. Sərv tinglərinin yaz və payız aylarında 3x4 m məsafədə əkilməsi tövsiyə olunur.



## ZEYTUN
(Olea europaea)

Zeytun 12 m-ə çatan həmişəyaşıl ağacdır. Quraqlığa davamlıdır, -10°C-dək şaxtaya dözür. Subtropik rayonlarda və Abşeron yarımadasında becərilə bilər. Toxum, calaq və ya çiliklə çoxaldılır. Tinglərin payız aylarında 4x5 m məsafədə əkilməsi tövsiyə olunur.